# Viktor HÜQO

# HƏZRƏTİ-MƏHƏMMƏD

*Poema*

Yaxında vəzifə alacağı
qəlbinə dammışdı.
Cəsurdu.
kimsəni qınamırdı, incitmirdi.
Yolda gördüyü hər kəslə salamlaşırdı.
Hər gün sanki bir az yaşlanırdı.
Halbuki, sadəcə, üç-beş ağ tük vardı
saqqalında,
Durub, su içən dəvələrə baxırdı arada.

Beləcə, dəvə güddüyü
zamanları xatırlayırdı.
Sanki Cənnəti görmüş,
İlahi Eşqi bulmuşdu,
Sanki kainatın yaradılışına
şahid olmuşdu.
Alnı dik, yanaqları qüsursuz, bənzərsizdi,
Qaşları incə, baxışları mənalı və kəskindi.
Boynu gümüş bir bardaq boğazıydı sanki.
Başında
tufanın sirlərini bilən Nuhun havası vardı.
Onunla danışmağa gələnlərlə
adil davranırdı.
Kimi günahını boynuna alar,
kimi inkar edərdi,
Hamını səssizcə dinlər,
axırda qərar verərdi.
Ağzından dua və zikir heç əskik olmazdı.
Çox az yeyər, bir loxma ilə doyardı.
Boş durmaz, yer şumlar, ağac əkərdi,
Geyindiyi əlbisələri özü tikərdi.
Artıq gənc deyildi,
əski gücü qalmamışdı,
Yenə də hər kəsdən daha çox oruc tutardı.
Altmış üç yaşında bir atəş sardı vücudunu,
Müqəddəs kitab Quranı
bir dəfə də oxudu
Sonra bayrağı Səidin oğluna verdi:
"Artıq aranızdan ayrılmaq vaxtı gəldi,
Allah birdir, həp onun yolunda savaşın"
- dedi.
Məhzundu,
baxışlarında yurdundan zoraki
Qovulmuş yaşlı bir qartalın
hüznü vardı sanki.
Yenə hər günkü vaxtında məscidə gəldi.
Üzü solğundu,
döndü və qələbəliyə səsləndi:
"Ey insanlar,
zaman gəlib keçəcək,
ömür bitəcək,
Biz qaranlıqda bir zərrəyik,
yücə olan Odur.
Ey insanlar, Ondan başqa rəhbər,
Ondan başqa dəyər yoxdur".
Bir kişi ona:
"Ey möminlərin gerçək sultanı!
Səni dinlər-dinləməz,
inandıq hər sözünə,
Sən doğulduğun vaxt
bir ulduz doğdu göy üzündə,
Kisra sarayının üç qülləsi birdən devrildi,"
- dedi.
O da: "Mələklər ölümümü müzakirə etdi,
Vaxt tamam, dinləyin!
Əgər hər hansı birinizə
Bir pislik etmişəmsə,
çıxsın, hamının önündə
Mən ölmədən,
gəlsin intiqamını alsın indi;
Kimi vurmuşamsa, o da məni vursun"
- dedi.
Və üsulca uzatdı əsasını ordan keçənlərə.
Yaşlı bir qadın, ət doğrayırdı eşikdə.
Ona:

"Allah yardımçın olsun" - deyə səsləndi.
O da baxışları hüznlü və dalğındı,
Birdən belə dedi: "Hər kəs duysun!
Allah mənim adımı andı!
Bundan əmin olun,
Torpaqdan insan,
nurdan bir peyğəmbərəm,
İsanın gətirdiyi dini
tamamlamağa gəldim.
Əshabəm, səbr daşıyam,
İsa şirin dilli idi,
Zira, hər şəfəq
doğacaq günəşin müjdəçisidi.
İsa məndən əvvəldi,
Amma nə Tanrıdır, nə də Tanrının oğlu,
O, gülü iyləyən
Bakirə Məryəmdən doğuldu.
Unutmayın, mən də
ətdən və sümükdən bir faniyəm,
Quruyan palçıqdan başqa bir şey deyiləm.
Bu dünyada başıma gəlməyən iş qalmadı,
Çəkdiyim çilələrə, daş da dayanmazdı,
Hiddət və işgəncədən çox,
lap çox çəkdim,
hər günahın bədəli
Qorxunc bir cücü olsaydı,
o qaranlıq məzarı
Bizə dar edər,
cəhənnəmə çevirərdi ...
Mən müqəddəs savaşların
mütəvazi meydanıyam,
Kamalım eynən səhradakı isti
və su kimidir,
Bir sözüm qorxu, bir sözüm rəhm verir,
Ey insanlar,
çəkdiklərimi görürsünüz, budur.
İnsanları aldadıb, qaranlığa, cəhalətə
Sürükləmək istəyən,
o dəhşət saçan iblisləri
Əngəlləməyə çalışdım,
bağladım əyri əllərini.
Çox zaman Yaqub kimi
qaranlıqlar içində
Çarpışıb durdum görmədiyim kimsələrlə.
Onlar məni öldürmək istədilər,
Qəlblərində daim
Mənə qarşı kin və qısqanclıq bəslədilər.
Mən isə, əsla, Haqq davamdan
vaz keçmədim.
Onlarla savaşdım,
amma heç birini incitmədim.
Sağ əllərinə Ayı, sol əllərinə günəşi
Versəm də, düşmənlərim
durdurmadılar döyüşü.
Bu müqəddəs dava uğrunda
düz qırx il savaşdım.
Budur, bu cür keçən bir ömrü,
nəhayət, tamamladım.
İndi Allahın dərgahına gedirəm,
Sağ olun,
bu dünyada tək qoymadınız məni,
Əlbəttə, gördüyümüz çətinliklər
son bulacaq,
Soyuq, ıssız gecədən sonra
Günəş doğacaq.
Möminlər,
əsla ümidinizi kəsməyin Ondan,
Zira, Kronnega dağlarını
aslan yuvası yapan,
Dənizləri incilərlə,
qaranlıqları da ulduzlarla
Süsləyən Allah,
şəksiz sizi də qoymaz darda.
Sonra: "Ona inanıb, səcdə qılın"
- deyə əlavə etdi.
İnanmayanların
qapqara qaralmışdır qəlbləri,
Yalnız günah işləməkdir tək işləri;
Heç kim tamamilə günahsız deyildir bəlkə,
Amma cəhd edin ki,
Allah cəzalandırmasın sizi.
Namaz qılın,
ağ və dik alnınız dəysin yerə,
Zira,
o dayanılmaz cəhənnəm atəşi, sadəcə,
Onun üçün yerə qapanmayanları
yandırıb yaxar,
O, qapqaranlıq dünyanı
masmavi göylə açar.
Misafiri sevin, dürüst olun,
ədalətlə hökm edin,
Haqq qatında
dürlü-dürlü nemətlər var sizin üçün.
Yeddi göyü keçməkdən ötrü
altun yəhərli atların,
İldırımlardan iti sürətləri var.
Hürülər tərtəmiz və nəşəlidilər.
İncilərdən tikilmiş köşklərdə oturur hər biri.
Cəhənnəm günah əhlini gözlər,
vay hallarına,
Ki, səcdəni gətirməmişlər xəyallarına! "
Bir az durdu, həp ümidli olmalarını istədi.
Sonra ağır addımlarla yeriməyə davam etdi.
Ardından: "Ey insanlar, sizə deyirəm,
Vaxt tamam oldu, əbədi bir aləmə gedirəm.
Bəlkə bu sizinlə son görüşümüzdü,
acələ edin,
Hər kəs gəlsin
və son dəfə məni dinləsin.
Bir xatam olubsa,
üzümə söyləsin" - dedi.
Qələbəlik səssizcə
sağa, sola aralanıb yol verdi.
Getdi və Əbufleya quyusunda üzünü yudu.
Biri ondan üç dirhəm istədi,
çıxarıb verdi.
"Bu qəbrə aparmaqdan daha yaxşıdı"
- dedi.
Hamının bir göyərçin kimi
işıl-işıldı gözləri,
Baxdılar torpaqdan
və nurdan olan insana,
Ağlaya-ağlaya
evinə qədər yoldaşlıq etdilər ona.
Bir çoxu gözünü belə qırpmadan
orada gözlədi,
Bütün gecəni çöldə -
daşların üstündə keçirdi.
Məhəmməd ertəsi gün
dan yerinin ağardığını görüncə:
"Mən artıq qalxa bilmirəm,
- dedi Əbubəkirə.
Quranı götür,
namazı sən qıldıracaqsan".
Zövcəsi Ayişə də o vaxt
camaatın arasındaydı.
Əbubəkir Quranı oxuyur,
Məhəmməd isə dinləyirdi.
Nəhayət, oxunan ayətlər üsul-üsul bitdi.
Peyğəmbər dua və zikr edərkən
hamı ağlayırdı.
Nəhayət, ölüm mələyi gəldi axşama doğru,
"İçəri girə bilərəmmi?" - deyə icazə istədi.
"Gəl" - dedi Məhəmməd.
Dünyaya açdığı o ilk günkü kimi
Yenə işıl-işıl parlayır
və gülümsəyirdi gözləri.
Və mələk ona: "Allah səni gözləyir" - dedi.
"Məmnuniyyətlə", - dedi Məhəmməd.
Saqqalı yüngülcə titrədi,
Bir an aralandı dodaqları və ruhunu təslim etdi.

**Ədəbiyyat qəzeti.- 2017.- 13 may.- S. 16-17.**